

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 214 (23.376)

14 noyabr 2019-cu il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Rusiya Federasiyasının Federasiya Şurasının sədr müavini İlyas Umaxanovu, Rusiya Federasiyasının Federasiya Şurasının Regional məsələlər üzrə komitəsinin sədri Sergey Melikovu, Dağıstan Xalq Məclisinin sədri Xızrı Şıxsəidovu və Dağıstan Xalq Məclisi sədrinin müşaviri Məhəmməd Qurbanovu qəbul edib.

* * *

Dövlətimizin başçısı həmin gün İran İslam Respublikasının Mədəniyyət və İslami Əlaqələr Təşkilatının sədri Abuzər İbrahimi Türkmanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 13-də Misir Ərəb Respublikasının Nümayəndələr Palatası sədrinin birinci müavini Əl-Seyyid Mahmud əl-Şərifin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

* * *

Prezident İlham Əliyev həmin gün Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının icraçı sədr müavini Malkolm Honlaynı qəbul edib.



## “Üçrəngli bayrağınla məsud yaşa” yaradıcılıq müsabiqəsinə yekun vurulub



*Naxçıvan Dövlət Universitetində “Üçrəngli bayrağınla məsud yaşa” fotovideo, əl işləri müsabiqəsinə yekun vurulub.*

Müsabiqədə fərqlənən tələbələrin mükafatlandırılması mərasimində çıxış edən universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov üçrəngli bayrağımızın tarixindən, onun əhəmiyyətindən danışıb. Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edildiyi vurğulanıb. Bildirilib ki, bu gün Azərbaycanda bütün sahələrdə olduğu kimi, dövlət bayrağına və digər dövlət atributlarına da yüksək diqqət göstərilir.

Universitetin Beynəlxalq münasibətlər kafedrasının müəllimi Arzu Abdullayev qeyd edib ki, bu gün Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma diyarımızda da dövlət atributlarına hörmət və ehtiramla yanaşılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 22 avqust tarixli Sərəncamına əsasən Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılıb.

Vurğulanıb ki, gənclərimiz də milli dəyərlərimizə, tariximizə, soykökümüzə bağlı olmalı, müstəqilliyimizin əbədiliyini təmin edəcək vətənpərvər gənc kimi formalaşmalıdırlar.

Qeyd edək ki, Azərbaycanın dövlət bayrağını, rəmzlərini əks etdirən fotovideo, əl işləri hər bir tələbə tərəfindən hərəsindən bir nümunə olmaqla müsabiqəyə təqdim edilib. Müsabiqəyə universitetin “Instagram” səhifəsində yerləşdirilmək üçün, ümumilikdə, 40-a yaxın yaradıcı iş buraxılıb. Qaliblər 14 gün müddətində ən çox bəyənmə alan hər nominasiya üzrə 10 yaradıcı iş arasından seçilib. Münsiflərin rəyinə əsasən foto nominasiyası üzrə Mühasibat uçotu və audit ixtisasının II kurs tələbəsi Əhməd Əhmədzadə müsabiqənin qalibi olub. Beynəlxalq münasibətlər ixtisasının IV kurs tələbəsi Abazər Kərimov II, Dünya iqtisadiyyatı ixtisasının II kursunda təhsil alan Cavid Həsənli isə III yerə çıxıb.

Hüquqşünaslıq ixtisası üzrə III kurs tələbəsi Murad Əlkərəmov video nominasiyası üzrə qalib olub. Riyaziyyat və informatika müəllimliyi ixtisası üzrə I kurs tələbəsi Günel Əliyeva II, Dünya iqtisadiyyatı ixtisası üzrə II kurs tələbəsi Kamal Babazadə isə III yerə layiq görülüblər.

Əl işlərinin qiymətləndirilməsi zamanı tələbələrin şəxsi yaradıcılıq qabiliyyətləri, ideya, mövzu axtarışları əsas götürülüb. İqtisadiyyatın tənzimlənməsi ixtisası üzrə I kurs magistrantı Nigar Məhərrəmova qalib seçilib. Memarlıq ixtisası üzrə I kurs tələbəsi Elşad İsmayılov II, Musiqi müəllimliyi ixtisası üzrə III kurs tələbəsi Lətifə Quliyeva, Dünya iqtisadiyyatı ixtisası üzrə I kurs tələbəsi Nigar Nəsirli III yeri qazanıblar.

Qaliblər Naxçıvan Dövlət Universitetinin diplom və pul mükafatı ilə təltif olunublar.

**Səadət ƏLİYEVA**

## Bayraq Günü ilə əlaqədar tədbir keçirilib

Dövlət Bayrağı Muzeyində AMEA Naxçıvan Bölməsinin təşkilatçılığı ilə keçirilən tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açıb. Qeyd edilib ki, dövlətimiz tərəfindən müstəqilliyimizin rəmzi olan bayrağımız həmişə uca tutulub, onun qorunması və mühafizəsi ilə bağlı bir çox qanun və sərəncamlar verilib. Belə ki, ulu öndər Heydər Əliyevin 1998-ci il martın 13-də imzaladığı “Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında” Sərəncam dövlət atributlarının, o cümlədən bayrağımızın təbliği baxımından mühüm əhəmiyyət daşıyıb. Bundan əlavə, 2004-cü il iyunun 8-də “Azərbaycan Respublikası Dövlət Bayrağının istifadəsi qaydaları haqqında” Qanun imzalanıb, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2007-ci il noyabrın 17-də Bayraq Meydanının yaradılması, 2009-cu il noyabrın 17-də isə Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında Sərəncam imzalayıb.



Diqqətə çatdırılıb ki, müstəqil Azərbaycanın hər bir guşəsində olduğu kimi, Naxçıvanda da dövlət atributlarına münasibət yüksək səviyyədədir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında” 2014-cü il avqustun 22-də imzaladığı Sərəncama əsasən Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyi yaradılıb.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdirləri – AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev və dosent Asəf Orucov, Azərbaycan Respublikasının Əməkdar elm xadimi, professor Hüseyn Həşimli mövzu ilə bağlı çıxış ediblər. Çıxışlarda Azərbaycanın ərazi bütövlüyü və toxunulmazlığını, milli müstəqilliyimizi, azadlığımızı, dövlətçiliyimizi əks etdirən dövlət bayrağımızın dünya azərbaycanlılarının mənəvi-siyasi və mədəni birliyinin, vahidliyinin, bölünməzliyinin simvolu olduğu vurğulanıb. Eyni zamanda hələ sovetlər dövründə üçrəngli Azərbaycan Bayrağı ilə əlaqədar müxtəlif yaradıcı ziyalıların əsərlərində, xalq mahnılarında sətiraltı ifadələrin qeyd olunması ilə bağlı maraqlı faktlar diqqətə çatdırılıb.

Sonda muzeyin ekspozisiyasına baxış olub.

**Pərviz HACILI**

## Quruculuq işləri davam etdirilir



*Muxtar respublikamızda həyata keçirilən quruculuq tədbirləri Kəngərli rayonunu da əhatə edib. Hazırda rayonun Böyükdüz kəndində kompleks quruculuq işləri aparılır.*

Belə ki, kənddəki 342 şagird yerlik ikimərtəbəli məktəb binasında işlər artıq yekunlaşmaq üzrədir. Yenidənqurma zamanı məktəbin əvvəlki binasında əsaslı təmir işləri aparılmaqla yanaşı, gələcək perspektiv nəzərə alınaraq bura yeni korpus da əlavə olunub. Yeni korpusda sinif otaqları, laboratoriya və fənn kabinələri, psixoloq və şahmat otaqları, kitabxana olacaq. Bundan əlavə, tikilən yardımçı binada bufet, qazanxana və sanitar qovşaqları yerləşəcək. Buradakı boş ərazidə açıq idman qurğuları da quraşdırılacaq.





Qeyd edək ki, inşaat işləri zamanı məktəb binasının dam örtüyü, qapı və pəncərələr, kommunikasiya xətləri dəyişdirilib, eyni zamanda dəhlizlərə və mərtəbələrarası pilləkənlərə cilalanmış travertin daşlar döşənib, daxildə və fasad hissədə suvaqboya işləri aparılıb. Həyətyanı sahədə isə lazımi ərazilərə kilid daşları, bordürlər düzülüb, yaşıllıqlar üçün yerlər ayrılıb, işıqlandırma və su xətləri çəkilib. Hazırda burada abadlıq işləri davam etdirilir.

Kənddə tikilən yeni obyektlərdən biri də birmərtəbəli xidmət mərkəzinin binasıdır. Burada ət satışı dükanı, dərzi sexi, bərbər və gözəllik salonu sakinlərin istifadəsinə veriləcəkdir. Eyni zamanda binada ərzaq və təsərrüfat mallarının saxlanılması üçün anbarlar da yerləşəcək. Burada da artıq işlər yekunlaşdırılıb.

Digər inşa olunan bina isə həkim ambulatoriyası üçün nəzərdə tutulub. Birmərtəbəli binada betonqəlib işləri başa çatdırılıb, dam örtüyü vurulub. Hazırda daxildə hörgü işləri aparılır. Bu səhiyyə müəssisəsində stomatoloq üçün kabinə, doğuş, peyvənd, aptek, tibb bacısı, manipulyasiya və laboratoriya otaqları, palata nəzərdə tutulub.

Bundan əlavə, Naxçıvan-Sədərək magistral avtomobil yolundan Böyüküdüz kəndinə ayrılan, eləcə də kənd mərkəzindəki daxili avtomobil yolları da yenidən qurulur. Ötən müddətdə adıçəkilən avtomobil yollarında torpaqbərkitmə işləri aparılıb, yeni suaxıdıcı kanallar qoyulub, yol kənarlarındakı hasarların divarları üzlənib.

Qeyd edək ki, həyata keçirilən inşaat işləri Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Naxçıvan Şəhər İdarəsinin kollektivi tərəfindən görülür.

**Babək İSMAYILOV**




# İqtisadiyyat







## Gələn ilin bol məhsulunun əsası qoyulur

### *Muxtar respublikanın taxıl zəmiləri hünər meydanına çevrilib*

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin muxtar respublika üzrə 12 noyabr 2019-cu il tarixə taxıl səpininin gedişinə dair məlumatına baxarkən neçə illər əvvəl bu sahədə rastlaşdığımız bəzi məqamları xatırladım.***

İlk olaraq yadıma torpaq islahatları düşdü. O vaxt əhaliyə verilmiş pay torpaqlarından necə istifadə edəcəyimizlə bağlı söhbətlər baş alıb gedirdi. Elə bir dövr idi ki, ictimai təsərrüfatlara məxsus texnikaların istismar müddəti başa çatmış, ömrü sona yetməkdə olan kombaynlar, şum traktorları isə barmaqla sayılası qədər idi. Bəzi yerlərdə suvarma suyu məsələsi isə daha bir problem yaratmışdı. Məsələn, Ordubad rayonunun bütün ictimai təsərrüfatlarındakı belə texnikaların cəmi ilə, ancaq bir kənddə şum qaldırılmasını, taxıl səpinini və tədarükünü təmin etmək olardı. Bu isə intizarla islahatların başa çatmasını gözləyən torpaq adamlarının yenicə qovuşduqları sevincinin hədər olmasına gətirib çıxarmışdı. Odur ki, islahatlar başa çatdıqdan sonrakı 2-3 il ərzində torpaqların az bir qismindən istifadə edilirdi. Torpaq mülkiyyətçiləri öz ailəsinin tələbatını ödəmək üçün tərəvəz məhsulları əkir, əkilməyən torpaqlar intizarla ondan istifadə edəcək insanların yolunu gözləyirdi.

“Hər qaranlıq gecənin bir işıqlı gündüzü var” deyimini dəfələrlə sınaqdan çıxarmış naxçıvanlılar o çətinliklərə də dözdülər. Dözdülər və bu gün görürlər ki, muxtar respublikanın torpağı özünə daimi iş yeri seçən, bu qiymətli sərvətin qədrini bilən hər bir sakini hərtərəfli dövlət qayğısı ilə əhatə olunub. Elə bu qayğının ifadəsidir ki, ilbəil taxılçılığa da maraq artır, bu strateji məhsulun istehsalında ilk addımdan başlayaraq tədarük edilmiş taxılın, taxıldan istehsal olunmuş məhsulların satışında heç bir problemlə üzləşilmir.

Keçək mətləbə. Muxtar respublikada “Ailə təsərrüfatları ili” elan edilmiş 2019-cu ildə də taxılçılıqda yüksək nəticələr əldə olunub. Bu isə o deməkdir ki, süfrələrimizdə yerli çörək bolluğu yaradılıb. Bəs bu prosesdə başlıca rol oynayan amillər hansılardır?

Kənd təsərrüfatının, daha dəqiq desək, əkinçiliyin inkişafında torpaq mülkiyyətçilərinin müasir kənd təsərrüfatı texnikaları ilə təchiz edilməsinin böyük rolu vardır. Muxtar respublikamızda bu vəzifə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin rayonlarda olan kənd təsərrüfatı maşın və aqreqatları ilə yanaşı, şəxsi texnikalar vasitəsilə



də həyata keçirilir. Ötən dövrdə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətinin xətti ilə 2694 müxtəlif təyinatlı kənd təsərrüfatı texnikası gətirilib, onlardan 2240-ı nağd hesablaşma və lizinq yolu ilə satılıb. Alınmış texnika və aqreqatların 319-u 2019-cu ilin yanvar-sentyabr aylarının payına düşür. Cari ilin yanvar-iyul aylarında 182 ədəd müxtəlif adda kənd təsərrüfatı texnikası və avadanlığı lizinq yolu ilə məhsul istehsalçılarına verilib, 2 ədədi nağd yolla satılıb. Mövcud texnikalar kənd təsərrüfatı sahəsində aqrotexniki tədbirləri keyfiyyətlə həyata keçirməyə imkan verir. Torpaq mülkiyyətçilərinə lizinq yolu ilə belə texnikaların alınıb icarəyə verilməsi ilə bağlı dövlətimiz tərəfindən güzəştlərin müəyyən edilməsi onlara göstərilən daha bir qayğının ifadəsi kimi dəyərləndirilir.

Əkinçiliklə məşğul olan insanlar yaxşı bilirlər ki, bol və keyfiyyətli məhsul istehsalında başlıca amillərdən biri yüksək reproduksiyalı toxumlardan istifadə etməkdir. Artıq muxtar respublikada bu məsələ də öz həllini tapıb. Naxçıvan şəhərində toxumçuluq təsərrüfatı üçün yeni kompleks inşa olunub. Muxtar respublikanın əsas toxumçuluq bazası olan bu kompleksdə taxılla yanaşı, digər bitki toxumlarının satışı da həyata keçirilir. Hazırda muxtar respublikada 5 toxumçuluq təsərrüfatı fəaliyyət göstərir. Sahibkarlara elit, I və II reproduksiyalı buğda və arpa toxumlarının satışının təşkil edilməsi, eləcə də 70 faiz güzəştli şərtlərlə mineral gübrələrin, I və II reproduksiyalı toxumların satışına görə dövlət tərəfindən subsidiyaların ödənilməsi, eləcə də əkin sahəsinin hər hektarına fermerlərə 50 manat yardım verilməsi təmin olunur.

Torpaq sahələrinin normalara uyğun suvarma suyu ilə təmin edilməsi də əkinçiliyin inkişafını şərtləndirən əsas amillərdən biridir. Buna görə də muxtar respublikada irriqasiya sistemləri daim yeniləşdirilir, meliorasiya tədbirləri həyata keçirilir. Bu da torpaq sahələrində su təminatının yaxşılaşdırılmasına, yeni torpaq sahələrinin əkin dövriyyəsinə qatılmasına imkan verir. Belə ki, son illər muxtar respublikada 4 min 135 hektar sahədə yeni qapalı suvarma şəbəkəsi istifadəyə verilib.

Bəhs olunan dövrdə mütərəqqi suvarma sistemlərinin qurulması da diqqət mərkəzində saxlanılıb. Su itkisinin qarşısını almaq, suvarmanı yaxşılaşdırmaq, istifadə olunmayan torpaq sahələrini əkin dövriyyəsinə daxil etmək məqsədilə xeyli iş görülüb. Babək rayonunun Nehrəm kəndi ərazisində 1170, Culfa rayonunun Bənəniyar kəndi ərazisində 1050, Kəngərli rayonunun Böyükdüz, Xok və Yurdçu kəndləri ərazilərində 1916 hektar sahə olmaqla, ümumilikdə, 4136 hektar sahəni əhatə edən ərazidə qapalı suvarma şəbəkəsi tikilib. Hazırda Şahbuz rayonunun Türkeş kəndi ərazisində 300 hektar sahədə qapalı suvarma şəbəkəsinin tikintisi davam etdirilir.

Babək rayonunun Kültəpə, Şərur rayonunun Xanlıqlar, Ələkli və Vərməziyar kəndlərinə suvarma suyunun verilməsi üçün 6 kilometr yeni boru xətti çəkilib, 50 hektar ərazi yeni əkin dövriyyəsinə daxil edilməklə 1154 hektar əkin sahəsi suvarma suyu ilə təmin olunub.

Ordubad rayonunda Zəvvar və Gülaman arxının 5,05 kilometr hissəsində təmir-bərpa işləri yerinə yetirilib, Əylis kəndi ərazisində 4,3 kilometr uzunluğunda yeni arx çəkilərək 261 hektar torpaq sahəsi daimi suvarma suyu ilə təmin edilib.

Bəhs olunan dövrdə mexaniki suvarma üsulunun tətbiqi də diqqətdə saxlanılıb. İkinci suvarma mənbəyi kimi istifadə edilən nasos stansiyaları və subartezian quyularından səmərəli istifadə olunmasına ciddi önəm verilir. Yanvar-sentyabr aylarında 19 nasos stansiyası və 88 subartezian quyusunun tikilməsi, 17 nasos stansiyasının, 19 subartezian quyusunun yenidən qurulması bunun ifadəsidir.

Görülən işlər sırasında taxılın uzun müddətdə saxlanılmasını təmin etmək məqsədilə tikilən soyuducu anbarlar, tədarük olunan məhsulun üyüdülməsi üçün dəyirmanların istifadəyə verilməsi, yeni çörəkbişirmə sexlərinin fəaliyyətə başlaması, torpaq mülkiyyətçilərinə kreditlərin verilməsini də vurğulamaq lazımdır. Bütün bunlar isə muxtar respublikada daxili bazarın taxıl və taxıl məhsulları ilə təminatında böyük rol oynayan amillərdir.

Kənd təsərrüfatının, o cümlədən taxılçılığın inkişafına göstərilən diqqət və qayğı, məhsul istehsalçılarına sərf etdikləri yanacaq və motor yağlarına görə yardımların, əkilən hər hektara görə gübrələrin, güzəştli şərtlərlə kreditlərin verilməsi və digər mühüm tədbirlər bu sahənin dinamik inkişafını təmin edib.

Görülən işlərin nəticəsi olaraq 2019-cu ilin məhsulu üçün muxtar respublikada 62 min 970 hektar sahədə əkin aparılıb ki, bunun da 33 min 308 hektarını taxıl zəmiləri təşkil edib. 2018-ci illə müqayisədə taxıl əkini sahələri 825 hektar artıb. 24 min 729 hektarı buğda, 8579 hektarı arpa olan əkin sahələrindən 102 min 984 ton məhsul tədarük olunub. Bu, 2018-ci ilin göstəricisi ilə müqayisədə 5295 ton çoxdur. Yığılan məhsulun 77 min 261 tonu buğda, 25 min 723 tonu isə arpa olub. Məhsuldarlıq orta hesabla hər hektardan 30,9 sentner təşkil edib. Əldə olunan məhsulun 13 min 947 tonu Şərur, 33 min 707 tonu Babək, 4785 tonu Ordubad, 18 min 993 tonu Culfa, 15 min 316 tonu Kəngərli, 4437 tonu Şahbuz, 8788 tonu Sədərək rayonlarının, 3011 tonu isə Naxçıvan şəhərinin payına düşüb.

Artıq diyarımızın məhsuldar taxıl zəmiləri yenə hünər meydanına çevrilib. Yaradılan şəraitdən səmərəli istifadə edən taxılçılar şum qaldırılmasını, toxum səpinini sürətlə davam etdirirlər. Noyabr ayının 12-dək 19 min 267 hektar sahədə toxum səpilib ki, bunun 14 min 141 hektarını buğda, 5 min 126 hektarını arpa təşkil edir. Birincilik Babək rayonundadır. Bu bölgədə 7 min 224 hektar sahədə əkin başa çatıb. Kəngərli rayonunda 4002 hektar sahədə taxıl əkilib. Culfa rayonunda da səpin sürətlə davam etdirilir. Bölgədə 3 min 359 hektar sahədə bu kampaniya başa çatdırılıb. Şərur rayonunda 1513, Sədərək rayonunda 1232, Şahbuz rayonunda 697, Ordubad rayonunda 659, Naxçıvan şəhərində 581 hektar sahədə taxıl səpilib.

Havaların əlverişli keçməsi taxılçıları arxayın salmır. Onlar gələn ilin bol məhsulunun əsasını qoymaq üçün bütün imkanları səfərbər ediblər. Bu da belə deməyə əsas verir ki, taxıl əkini kampaniyası vaxtında başa çatdırılacaq.

✍ **Muxtar MƏMMƏDOV**

---

*İstehsal müəssisələri*

## Tikinti məhsullarına olan tələbat yerli istehsal hesabına ödənilir

***Bu gün ölkəmizdə sahibkarlığın inkişafı üçün hərtərəfli şərait yaradılıb. Hər il sahibkarlıq fəaliyyəti ilə bağlı qərarlar qəbul olunur, müvafiq sərəncamlar imzalanır. Həmçinin bazar iqtisadiyyatının tələblərinə uyğun olaraq istehsal müəssisələri dövlət tərəfindən özəlləşdirilərək sahibkarlara verilib. Bu da sahibkarlar sinfinin formalaşmasına və onların səmərəli fəaliyyət göstərməsinə geniş imkanlar açır. Bir sözlə, dövlət-sahibkar münasibətləri, sahibkarların fəaliyyətinin tənzimlənməsi sahəsində görülən işlər ölkəmizin dayanıqlı inkişafını təmin edir. Belə sahibkarlıq subyektlərindən biri də “Cahan Sənaye Kompleksi” Məhdud Məsuliyyətli Cəmiyyətində istilik panelləri və dam örtükləri istehsalı müəssisəsidir.***




Muxtar respublikamızda dövlət tikintisinin həyata keçirilməsi, əhali tərəfindən yeni evlərin tikilməsi, eləcə də istehsal və xidmət sahələrinin yaradılması dam örtüklərinə və istilik panellərinə olan tələbatı daha da artırır. “Cahan Sənaye Kompleksi” MMC-də istilik panelləri və dam örtükləri istehsalı müəssisəsi daxili tələbatın keyfiyyətli məhsullarla tam ödənilməsinə imkan verir.

Ötən günlərdə müəssisənin satınalma mütəxəssisi Zaur Əhmədli ilə söhbətimiz zamanı bildirdi ki, əvvəllər tikinti sahəsinə aid məhsullara olan tələbat idxal hesabına ödənilirdisə, son illərdə həmin sahədə çalışan sahibkarlara göstərilən dövlət qayğısı bu tələbatın yerli məhsullar hesabına ödənilməsini təmin edib.

Öyrəndik ki, müəssisədə müasir avadanlıqlardan istifadə olunaraq 5620 kvadratmetr sahədə dam örtükləri, istilik panelləri və boyama istehsalı xətləri fəaliyyət göstərir. İstilik panelləri sahəsinin gücü ayda 9500 metr panel və 8000 metr alüminium radiator, dam örtükləri sahəsinin gücü isə ayda 250 min kvadratmetr metal dam örtüyüdür. Təcrübəli mütəxəssislərin çalışdığı müəssisədə istehsal prosesi avtomatlaşdırılıb, texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunmaqla normal iş şəraiti yaradılıb. İstehsal prosesi konveyer üsulu ilə həyata keçirilir. Kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş texnoloji avadanlıqlarda verilən sifarişə uyğun işlər avtomatlaşdırılmış şəkildə yerinə yetirilir. Panel-radiatorun ayrı-ayrı detalları müxtəlif mərhələlər keçməklə hazırlanıb avtomatik qaynaq edilir, işin keyfiyyəti isə test yoxlamasından keçirilir. Sonrakı mərhələdə boyaq işləri görülür. Birinci mərhələdə panel-radiator sulu boya ilə boyanıb xüsusi sobada istilikdə, ikinci mərhələdə isə tunel sobada istilikdə elektrostatik toz boya ilə boyanıb qurudulur. Hazır məhsul xüsusi avadanlıqlarda paketlənib sifarişçilərin ünvanlarına göndərilir.

Müsahibim deyir ki, dam örtükləri istehsalı sahəsində dəmir lövhələr xüsusi qəliblərdə sıxılıb sifarişə uyğun kəsilir. Rəngli şiferlər tunel sobada xüsusi texnologiya, elektrostatik toz boya ilə boyanır. Bundan əlavə, müəssisədə fəaliyyət göstərən laboratoriyada müasir avadanlıqlar quraşdırılıb ki, bu da istər xammal, istərsə də hazır məhsulların keyfiyyət göstəricilərinə nəzarəti təmin edir. Standartların tələblərinə uyğun müəssisəmizdə istehsal olunan məhsulların 20 faizi yerli tələbatı tam ödəyir, 80 faizi isə ölkəmizin digər bölgələrində və xarici bazarlarda satışa çıxarılır. Onu da qeyd edim ki, Bakı, Gəncə, Şəki, Bərdə, Kürdəmir, Masallı, Quba şəhərlərində satış mərkəzlərimiz fəaliyyət göstərir və Türkiyə Respublikasının İqdır şəhərində də yeni satış mərkəzi yaradılıb.

Müəssisədə olarkən onu da öyrəndik ki, burada iş otaqları, iclas zalı, mətbəx, torna və dülgər emalatxanaları, tikinti materiallarının satış mərkəzi, hazır və ehtiyat hissələri anbarları da fəaliyyət göstərir. Müəssisədə təhlükəsizlik tədbirlərinə də diqqət artırılıb, videomüşahidə sistemi quraşdırılıb. İşçilər üçün xidməti otaqlar da var. Onlar pulsuz nahar yeməyi, xüsusi geyim forması və nəqliyyatla təmin olunurlar.

Müəssisədə istehsal edilən məhsulların beynəlxalq standartlara uyğun olması istər yerli, istərsə də xarici istehlakçıların Naxçıvan istehsalı olan istilik panelləri və dam örtükləri məhsullarına üstünlük verməsi ilə nəticələnib.

✍ **Pərviz HACILI**

## Dalğalan, dalğalan, yüksəklərə, zirvələrə ucal, milli BAYRAĞIMIZ!..



***Bu xalq dövlətinə, millətinə məxsus olan bayrağını asanlıqla yüksəklərə ucaltmayıb. Bu yolda zaman-zaman qanlar axıdılıb, igidlər, ərənlər düşmən gülləsinə tuş gəlib, Vətən yolunda şəhid olublar. Elə qırmızı rəngi şəhid qanından alan bayrağımız zirvələrdə dalğalanarkən şəhid adını da özü ilə birlikdə zirvələrə qaldırıb. Vətənimizin adını, qüdrətini, qeyrətini də həmçinin.***

Azərbaycanlıların canları qədər sevdikləri üçrəngli, ulduzlu, ayparalı bayraq... Lakin bu bayrağın da "taleyi" xalqın taleyi kimi keşməkeşli olub. 1918-ci ildə azadlıq uğrunda mücadilənin son nəticəsi olaraq qaldırılan üçrəngli bayrağımız Azərbaycan Xalq Cümhuriyyətində cəmi 23 ay dalğalandı, Vətənimizin göylərini üç rənglə – göy, qırmızı, yaşılla cəmi 23 ay bəzədi.

Gözü torpaqlarımızda, iştahası sərvətlərimizdə olanlar bu müstəqil respublikanın tərəqqisinə imkan vermədilər. Əsrlərlə həyata keçirilmiş planlar yenidən təkrarlandı. Çoxəsrlik tarixi, ənənələri olan Azərbaycan yenidən bu planların qurbanı oldu. Həmin planların müəllifləri 14 müttəfiqdən biri kimi Azərbaycanı da öz müstəmləkəsinə çevirməklə 70 illik əsarətə məhkum etdilər. Müstəqilliyimizi əlimizdən aldılar, üçrəngli bayrağımızı da dalğalanmağa qoymadılar. Azərbaycan Xalq Cümhuriyyəti Azərbaycan Sovet Sosialist Respublikası adlandırıldı, bayrağımız isə üçrəngli deyil, imperiyanın müəyyənləşdirdiyi bayraq oldu. Nə az, nə çox, düz 70 il dalğalandı başımız üzərində. Lakin ürəyimizdə yüksəklərə qalxa bilmədi. Çünki istəmədiyimiz, özümüzünkü olmayan bir bayraq idi. Qanlar bahasına ucaldılmış bayrağın yerinə sancılmış bayraq idi. Sərvətləri talanan, hüquqları tapdalanan, tarixi mənimsənilən bir məmləkətin ələm bayrağı idi.

İllər illərə calandıqca, onilliklər bir-birini əvəz etdikcə zamanı 70 ilə yaxınlaşdırırdı, bununla da əsarətin sonu çatırdı. "Bayraqları bayraq edən üstündəki qandır" kəlamı bu illər uzunu ürəyimizdəki yaranı sızladırdı. Bu sızıltılar isə millətin yuxusunu ərşə çəkir, onu yeni mübarizələrə səsləyirdi. Bu səs Azərbaycana Naxçıvandan yayılırdı. 1990-cı ildə Moskvadan Bakıya, oradan isə Naxçıvana qayıdan Vətən oğlunun – ulu öndər Heydər Əliyevin azadlıq mübarizəsinə çağırışı ilə bütün Azərbaycana yayılırdı. Müstəqillik uğrunda 1918-ci ilin davamı olan mücadilə elə üçrəngli bayrağın yenidən qaldırılması, dalğalanması və bütün azərbaycanlıların bir bayraq altında cəm olması ilə başlandı. Bu təşəbbüs 1990-cı ilin 17 noyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin ulu öndər Heydər Əliyevin sədrlik etdiyi birinci sessiyasında qatı totalitar sovet rejimi dövründə belə, Azərbaycanı gələcək müstəqilliyə hazırlayan bu görkəmli siyasi xadim tərəfindən irəli sürüldü. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli milli bayrağı Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edildi və ölkənin ali hakimiyyət orqanı qarşısında Azərbaycan Respublikasının dövlət rəmzləri haqqında qərar qəbul edilməsi ilə bağlı vəsatət qaldırıldı.

Bəli, bu, o zaman idi ki, hələ ölkə sovet imperiyasının əsarət zəncirində inləyirdi. Naxçıvandan Azərbaycana yönələn bu müqəddəs çağırışa imperiya başçıları tab gətirə bilmirdilər. Azərbaycanın əldən çıxması, onun ardınca digər müttəfiqlərin də getməsi... Bu yanğı ilə yenidən qanlar axıdıldı. Ölkəmizə xüsusi qoşun göndərildi xalqı susdurmaq üçün. Lakin bu dəfə azərbaycanlılar "öldü var, döndü yox", – dedilər. Elə buna görə də müstəqillik qazana bildik. Qanlar axıdılsa da, yenə də saysız-hesabsız şəhidlər versək də, sonda azad olduq. 1991-ci ilin 18 oktyabrınadək, yəni 1990-cı ilin 17 noyabrında Naxçıvanda ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə qaldırılması təklif olunan və azadlıq mücadiləsinə aparan yolun rəmzi olan bayrağımız axıdılan qanla yenidən boyandı və əbədiyyən yüksəldi, dalğalanmağa başladı.

Sevindirici, həm də qürurverici haldır ki, müstəqil dövlətimizin üçrəngli bayrağı əbədiyyən Naxçıvanda ulu öndərimizin təşəbbüsü, qayğısı ilə qaldırıldı. Ümummilli lider Heydər Əliyev deyirdi: ***"Beləliklə, biz Naxçıvan Muxtar Respublikasının həyatında böyük tarixi qərarlar qəbul etdik. Naxçıvan Muxtar Respublikasının yeni adı qəbul olundu. Naxçıvan Muxtar Respublikasının ali hakimiyyət orqanının yeni adı qəbul olundu və Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı, milli bayrağı qəbul olundu. Böyük məsələlər həll etdik. Və bu məsələlərin həll olunmasında deputatlar çox böyük maraqla, böyük səylə iştirak etdilər, ona görə mən bir də bu böyük məsələlərin qəbul olunması ilə əlaqədar olaraq Sizi təbrik edirəm. Və Sizin hamınıza bu işdə fəaliyyət göstərdiyinizə görə minnətdarlığımı bildirirəm".***

Ulu öndərin layiqli davamçısı – Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə sərəncam imzalamışdır. 2009-cu il noyabr ayının 17-də isə Prezident İlham Əliyev Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi barədə imzaladığı sərəncama əsasən hər il olduğu kimi, bu il də noyabrın 9-nu respublikamızda Dövlət Bayrağı Günü kimi təntənəli şəkildə qeyd etdik.

Artıq Bakının Bayıl qəsəbəsində 20 min kvadratmetr ərazidə yaradılmış Dövlət Bayrağı Meydanında hündürlüyü 162 metr olan dayağın üzərində Dövlət Bayrağımız dalğalanır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 2014-cü il 22 avqust tarixdə imzaladığı "Naxçıvan şəhərində Dövlət Bayrağı Meydanı və Muzeyinin yaradılması haqqında" Sərəncamı həmin il noyabrın 17-də naxçıvanlılara Dövlət Bayrağı Meydanı və Muzeyini bəxş etdi. Naxçıvan şəhərinin ən hündür yerində inşa olunmuş bayraq dirəyinin hündürlüyü 57 metrdir. Üçrəngli bayrağımızın əzəmətlə dalğalandığı bayraq dirəyinin pyedestalının altında unikal quruluşa malik Bayraq Muzeyi yaradılmışdır. Səkkizguşəli ulduz formasında inşa olunan muzey binası eyni quruluşa malik sütunlarla əhatə olunmaqla burada heyrətamiz gözəllik yaradıb.

Açılış mərasimində çıxış edən Ali Məclis Sədrinin: ***"…Ümummilli liderimiz Heydər Əliyevin səyi ilə üçrəngli bayrağımızın ilk dəfə Dövlət Bayrağı kimi qaldırıldığı gün – noyabrın 17-si hər il Naxçıvan Muxtar Respublikasında əlamətdar tarixi gün kimi qeyd edilməlidir"*** kimi dəyərli fikirləri və həmin gün "Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı haqqında" Sərəncamın imzalanması ulu öndər Heydər Əliyevin Naxçıvanda görmək istədiyi işlər idi. Həmin Sərəncama əsasən hər il noyabr ayının 17-nin Naxçıvan Muxtar Respublikasının Dövlət Bayrağı Günü kimi qeyd edilməsi qərara alınmışdır.

İndi doğma Azərbaycanımızın hər bir bölgəsində yaradılan Bayraq meydanlarında, Vətənində və Vətənindən kənarda yaşayan bütün azərbaycanlıların qəlbində üçrəngli bir bayraq dalğalanır.

*Xalqımın sevgisi, məhəbbətisən,*
*Yurdumun vüqarı, əzəmətisən,*
*Sən ulu Heydərin əmanətisən –*
*Qalxıb ucalmısan Vətənlə qoşa,*
*Üçrəngli bayrağım, yaşa,*
*min yaşa!*

Dalğalan, dalğalan, yüksəklərə, zirvələrə ucal, milli bayrağımız! Müstəqil Azərbaycanın dövlət rəmzi olaraq bu Vətənin azad səsini elə bu Vətənin külәkləri ilə dünyaya yay!

**✍ Mətanət MƏMMƏDOVA**

## Əməliyyat təlimi davam edir



***Azərbaycan Ordusu miqyasında keçirilən əməliyyat təlimində Naxçıvan Qarnizonu qoşunlarının fəaliyyətləri davam edir.***

Təlimin ikinci günü qoşunların səfərbərlik ehtiyatları ilə komplektləşdirilməsi üçün şəxsi heyət və texnikanın qəbulu məntəqələri tam həcmdə açılaraq praktik fəaliyyət göstərib. Açılmış məntəqələrdə şəxsi heyət silah və maddi vəsaitlərlə təmin edilərək müxtəlif nəqliyyat vasitələri ilə birləşmə və hissələrin cəmləşmə rayonlarına çıxarılıb.

Hərbi qərar qəbuletmə prosesinə uyğun olaraq əsas komanda məntəqəsində keçirilən brifinqdə Müdafiə nazirinin müavini – Əlahiddə Ümumqoşun Ordu komandanı idarə və qoşun növü rəislərinin məruzələrini dinləyib, qərarın qəbulu üçün lazımi hesabatların aparılmasına və əlavə tədbirlərin görülməsinə göstəriş verib.

**Nəriman NƏCƏFOV**

## Polis əməkdaşları tərəfindən muzeylərə eksponatlar təqdim olunub

***Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin polis əməkdaşları tərəfindən Naxçıvan Dövlət Tarix Muzeyinə və "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksinə hədiyyə edilmiş maddi mədəniyyət nümunələrinin təqdimat mərasimi keçirilib. Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova açıb.***



Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı müvafiq sərəncamların icrası nəticəsində maddi-mənəvi sərvətlər xəzinəsi olan muzeylərə maraq artıb. Muxtar respublikada muzey fondlarının zənginləşdirilməsi, onların yeni eksponatlarla təmin olunması da bunun bariz ifadəsidir. Bu gün muzey fondlarının zənginləşdirilməsində təkcə muzey əməkdaşları deyil, muxtar respublikada yaşayan vətəndaşlar, o cümlədən tələbələr, ümumtəhsil məktəblərinin müəllim və şagird kollektivləri, rəssamlar və incəsənət adamları yaxından iştirak edirlər. Artıq 3 ildir ki, xalqımızın tarixini özündə yaşadan maddi mədəniyyət nümunələri, xalçalar, qədim əlyazmalar və rəsm əsərlərinin muzeylərə təqdim edilməsi təqdirəlayiq ənənəyə çevrilib. 2019-cu ilin noyabr ayınadək 12 eksponat təqdimatı keçirilib. Bu ilin 10 ayı ərzində muxtar respublikanın muzeylərinə 2044 yeni eksponat daxil olub. Sevindirici haldır ki, bu aksiyaya artıq muxtar respublikanın müxtəlif mərkəzi icra hakimiyyəti orqanları da qoşulur. Keçirilən bu təqdimat mərasimində də Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin əməkdaşları iştirak edirlər.



Bu gün onlar tərəfindən muzeylərə 27 sayda yeni eksponat təqdim edilir. Həmin eksponatların muzey ekspozisiyalarında sərgilənməsi nəzərdə tutulur.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyinin Təşkilat-İnspeksiya İdarəsinin rəisi, polis polkovniki Rəşad Seyidovun və Naxçıvan Dövlət Tarix Muzeyinin direktoru Nizami Rəhimovun da çıxışları dinlənilib. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasının daxili işlər orqanları Ali Məclis Sədrinin milli-mənəvi dəyərlərin qorunması və yaşadılması istiqamətində tapşırıq və tövsiyələrini əldə rəhbər tutaraq əhali arasında hüquqi-maarifləndirmə tədbirlərini genişləndirib və bu sahədə müəyyən nəticələr əldə edilib. Bunun nəticəsidir ki, bu gün keçirilən təqdimat mərasimində vətəndaşlardan könüllü təhvil götürülmüş 19 müxtəlif adda qədim əşya, 6 tüfəng, 1 tapança və 1 patrondaş muzeylərdə eksponat kimi nümayiş olunması və mühafizə edilməsi üçün Mədəniyyət Nazirliyinə təhvil verilib.

Sonda muzeyə təqdim olunan eksponatlara baxış olub.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## "Gənclərlə sağlam gələcəyə" adlı konfrans



***Dünən Naxçıvan Muxtar Respublika Xəstəxanası və Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun birgə təşkilatçılığı ilə "Gənclərlə sağlam gələcəyə" adlı konfrans keçirilib.***

Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublika Xəstəxanasının baş həkimi Zəbur Bağırov açaraq ölkəmizdə aparılan uğurlu gənclər siyasətindən bəhs edib. Bildirib ki, muxtar respublikamızda aparılan gənclər siyasətinin əsas istiqamətləri içərisində onların sağlamlığının qorunması və fiziki inkişafı da mühüm yer tutur. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov gənclərə daim qayğı göstərir, sağlam gəncliyin yetişməsinə xüsusi əhəmiyyət verir.

Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev çıxışında qeyd edib ki, bu gün muxtar respublikamızda gənclərin inkişafı üçün hər bir şərait yaradılıb. Gənclərin təhsili, tərbiyəsi, fiziki, əqli və mənəvi inkişafı, sağlamlığının qorunması, gələcək üçün sağlam genofondun təmin olunması məqsədilə maarifləndirici tədbirlər həyata keçirilir.

Vurğulanıb ki, Gənclər Fondu cari il ərzində müxtəlif layihələrin həyata keçirilməsini dəstəkləyib, bu layihələrdə gənclərin intellektual inkişafı, onların asudə vaxtlarının səmərəli təşkil olunması ön plana çəkilib. Bu gün keçirilən konfrans gənclərin fiziki və reproduktiv sağlamlığının təmin edilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Sonra Naxçıvan Muxtar Respublika Xəstəxanasının həkim-oftalmoloqu Kəmalə Əliyeva "Kompüter və smartfonların zərərlərindən qorunmağın yolları", həkim-nevropatoloq Səkinə Mirzəyeva "Gənclərdə depressiv hallar, onlardan xilasolma yolları", həkim-fizioterapevt Nuray Əliyeva "Onurğa problemləri", həkim-stomatoloq Vüsal Əliyev "Ağız boşluğu xəstəliklərinin yaranma səbəbləri və profilaktikası", Oftalmologiya ixtisası üzrə həkim-rezident Aynur Rzayeva "Zərərli ultrabənövşəyi şüaların törətdiyi xəstəliklər və onlardan qorunma yolları", həkim-endokrinoloq Aysel Dünyamalıyeva "Hazır qidalar və onların törətdiyi fəsadlar" mövzularında çıxış ediblər.

Konfransın sonunda suallar cavablandırılıb, müzakirələr aparılıb.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

Bələdiyyə seçkiləri – 2019

# Seçki marafonu

**23 dekabr 2019-cu il Azərbaycan Respublikasında bələdiyyə seçkiləri günüdür.**

**Hörmətli seçicilər!**

Azərbaycan Respublikasında bələdiyyə seçkilərində bələdiyyə üzvlüyünə namizədin qeydə alınması və namizədin qeydə alınması üçün seçki sənədlərinin təqdim edilməsi qaydası Azərbaycan Respublikası Seçki Məcəlləsinə müvafiq olaraq aşağıdakı qaydada tənzimlənir.

**Bələdiyyə üzvlüyünə namizədin qeydə alınması üçün seçki sənədlərinin təqdim edilməsi**

*Bələdiyyə üzvlüyünə namizədin qeydə alınması üçün namizəd və ya namizədin, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi səsvermə gününə ən çoxu 50, ən azı 30 gün qalmış saat 18<sup>00</sup>-dək dairə seçki komissiyasına aşağıdakı seçki sənədlərini təqdim etməlidir:*

1. Namizədin müdafiəsi üçün toplanmış seçici imzaları olan imza vərəqələri;
2. Seçici imzalarının toplanması haqqında yekun protokolunun 2 nüsxəsi;
3. Namizədin öhdəlik ərizəsindəki namizəd haqqında məlumatlarda dəyişikliklər barədə bildiriş;
4. Namizədin seçkilər təyin edildiyi gündən əvvəlki birillik dövrü əhatə edən gəlirlərinin miqdarı və mənbələri barədə məlumat;
5. Gəlirlər barədə məlumatların alındığı təşkilatlardan həmin gəlirlərin illik cəmi barədə arayış;
6. Namizədə məxsus əmlak barədə tərtib edilmiş məlumat;
7. Seçici imzalarının toplanması üçün sərf edilmiş vəsait haqqında məlumatlarda göstərilməklə, namizədin ilkin maliyyə hesabatı.

Müvafiq dairə seçki komissiyası imza vərəqələrini və onlara əlavə edilməli olan sənədləri səsvermə gününə ən çoxu 50, ən azı 30 gün qalmış saat 18<sup>00</sup>-dək qəbul edir. Həmin müddətdən sonra təqdim olunan imza vərəqələri və onlara əlavə edilməli olunan sənədlər qanunla müəyyən edilmiş müddətdə verilmiş müvafiq sənədlərin doğurduğu hüquqi nəticəni yaratmır. Dairə seçki komissiyası bu halı öz qərarı ilə rəsmiləşdirməlidir.

Dairə seçki komissiyası seçki sənədlərini qəbul edərkən imza vərəqələri olan hər bir qovluğu möhürlə təsdiqləyir, təqdim olunmuş imza vərəqələrinin sayının seçici imzaları toplanmasının yekunu haqqında protokolla uyğunluğunu yoxlayır, sonra isə qəbul edilmiş seçki sənədlərinin, eləcə də imza vərəqələrinin və imza vərəqələrindəki imzaların sayını göstərməklə, sənədlərin qəbulu barədə yazılı arayış verir. Arayış dairə seçki komissiyasının sədri və üzvlərindən biri, həmçinin sənədləri təqdim edən şəxs tərəfindən imzalanıb, dairə seçki komissiyasının möhürü ilə təsdiqlənir.

Arayışın bir nüsxəsi seçki sənədlərini təqdim edən şəxsə verilir.

**Bələdiyyə üzvlüyünə namizədin qeydə alınması**

– Müvafiq seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər sənədləri qəbul etdikdən sonra 7 gün müddətində namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməlidir. Siyasi partiyanın, siyasi partiyalar blokunun irəli sürdüyü namizəd qeydə alındıqda müvafiq seçki komissiyası qeydiyyat barəsində qərarında namizədin müvafiq siyasi partiya, siyasi partiyalar bloku tərəfindən irəli sürüldüyünü göstərir. Qeydiyyat barədə və ya qeydiyyatdan imtina barəsində qərarda onun qəbul olunduğu tarix və vaxt göstərilir.

– Namizədin qeydə alınması barədə qərarın surəti müvafiq seçki komissiyası tərəfindən həmin qərarın qəbul edildiyi gündən etibarən bir gün müddətində namizədə, namizəd irəli sürmüş siyasi partiyanın və ya siyasi partiyalar blokunun səlahiyyətli nümayəndələrinə verilməli, qeydiyyatdan imtina olunubsa, həm də bunun əsasları göstərilməlidir.

**İmtina üçün aşağıdakılar əsas ola bilər:**

– Dövlət orqanlarının, bələdiyyə qurumlarının, mülkiyyət formasından asılı olmayaraq hüquqi şəxslərin imza toplanmasında iştirakına yol verilmir. İmza toplanması prosesində seçiciləri imzalamağa məcbur etmək, imza atmağa imkan verməmək və ya buna görə onları hər hansı formada mükafatlandırmaq qadağandır. Həmin qadağaya əməl olunmaması müvafiq məhkəmə tərəfindən təsdiqlənərsə, bu, toplanmış imzaların etibarsız sayılması və namizədin qeydiyyatından, qeydə alınmış namizədin qeydiyyatından imtina üçün əsas ola bilər;

**Qeydə alınmış hər bir namizədə qeydiyyat vəsiqəsi verilir. Müvafiq seçki komissiyaları müvafiq seçki dairəsi üzrə qeydə alınmış namizədlər barədə məlumatları qeydiyyatdan sonra 24 saat müddətində kütləvi informasiya vasitələrinə təqdim edirlər.**

– Bələdiyyə üzvlüyünə namizədin qeydə alınması üçün təqdim olunmalı sənədlərin düzgün rəsmiləşdirilməməsi və ya olmaması;

– Namizədlərin, təqdim etdikləri məlumatların düzgün olmaması;

– Namizədin müdafiəsi üçün təqdim edilmiş etibarlı (düzgün) seçici imzalarının lazımi saydan az olması;

– Namizədin, siyasi partiyanın, seçki fondunun yaradılması qaydasının və müvafiq seçki fondunun vəsaitinin xərclənməsi qaydasının pozulması (bu əsas yalnız o vaxt tətbiq edilə bilər ki, əvvəllər bu cür pozuntuya görə xəbərdarlıq edilsin və ya cərimə tətbiq olunsun);

– Namizədin hərəkətlərində cinayət məsuliyyətinə və ya inzibati məsuliyyətə səbəb olan hüquq pozuntusu əlamətləri aşkar edildikdə seçki komissiyası bu Məcəllənin pozulmasında təqsirli olan şəxslərin məsuliyyətə cəlb edilməsi məsələsinə baxılması üçün müvafiq sənəd və materialları hüquq-mühafizə orqanlarına göndərir;

Seçki komissiyaları qeydə alınmış namizədlər barədə məlumatları səsvermə gününə ən azı 15 gün qalmış seçki komissiyasının otaqlarında, Seçki Məcəlləsinin 98.3-cü maddəsində nəzərdə tutulan məlumat lövhələrində yerləşdirirlər. Namizədin qeydiyyatının ləğv edilməsi barədə məlumatlar da həmin qaydada yerləşdirilir.

**Bələdiyyə üzvlüyünə qeydə alınmış namizədin vəkil edilmiş şəxsləri**

Qeydə alınmış namizədin, namizədi qeydə alınmış siyasi partiyanın, siyasi partiyalar blokunun vəkil edilmiş şəxs təyin etmək hüququ vardır. Göstərilən şəxslər müvafiq seçki komissiyası tərəfindən qeydə alınır. Vəkil edilmiş şəxslərinin təyin edilməsi barədə namizədin yazılı ərizəsinin və ya siyasi partiyanın, siyasi partiyalar blokunun təqdimatının, habelə vətəndaşın vəkil edilmiş şəxs olmaq barədə razılıq ərizəsinin daxil olduğu gündən başlayaraq 3 gün müddətində vəkil edilmiş şəxslər qeydə alınırlar. Ərizədə və ya təqdimatda vəkil edilmiş hər bir şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda – fəaliyyət növü), yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi göstərilməlidir.

**Bələdiyyə üzvlüyünə qeydə alınmış namizədin 3-ə qədər vəkil edilmiş şəxs təyin etmək hüququ vardır. Göstərilən şəxslər dairə seçki komissiyası tərəfindən qeydə alınır.**

Vəkil edilmiş şəxslər müvafiq seçki komissiyasından lövhəcik alırlar.

**Vəkil edilmiş şəxs qeydə alınmış namizədin seçilməsi ilə bağlı təşviqat aparır və digər bu cür fəaliyyətlə məşğul olur. Vəkil edilmiş şəxs müşahidəçi hüququna malikdir.**

Qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku, müvafiq seçki komissiyasını xəbərdar etməklə, vəkil etdikləri şəxsi istənilən vaxt geri çağıra bilər və onların əvəzinə başqalarını təyin edə bilərlər. Belə xəbərdarlıq olduqda seçki komissiyası geri çağırılan vəkil edilmiş şəxsin vəsiqəsini ləğv edir. Vəkil edilmiş şəxs qeydə alınmış namizədi, habelə siyasi partiyanı, siyasi partiyaların blokunu xəbərdar etməklə, ona verilmiş vəsiqəni istənilən vaxt öz təşəbbüsü ilə müvafiq seçki komissiyasına qaytararaq öz səlahiyyətlərindən imtina edə bilər.

Vəkil edilmiş şəxslərin səlahiyyətləri müvafiq seçki komissiyasının onları qeydə aldığı gündən başlanır və seçkilərin ümumi nəticələrinin rəsmi dərc edilməsi günündən gec olmayaraq, habelə Seçki Məcəlləsinin pozulması barədə şikayət üzrə məhkəmə araşdırması gedirsə, məhkəmənin yekun qərarının qəbul edilməsi günündən gec olmayaraq, Seçki Məcəlləsinin 72.4-cü maddəsində göstərilən hallar istisna edilməklə, təmsil etdikləri namizədlərin statusunun itirilməsi ilə başa çatır.

**Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyası**

## Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar tədbirlər keçirilib



***10-17 noyabr Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar hazırlanmış tədbirlər planına uyğun olaraq ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında yüngül atletikanın qaçış növü üzrə birincilik keçirilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Yüngül Atletika Federasiyasının birgə təşkil etdiyi birincilikdə 120 tələbə mübarizə aparıb və onlar 3000 metr məsafədə qalibi müəyyənləşdirməyə çalışıblar.

* * *

Ali və orta ixtisas təhsili müəssisələri tələbələri arasında keçirilən stolüstü tennis üzrə birincilik başa çatıb.

Birincilikdə 36 tələbə qalib adı uğrunda mübarizə aparıb.

* * *

Naxçıvan Dövlət Universitetinin idman zalında ali və orta ixtisas təhsili müəssisələri tələbələri arasında badminton idman növü üzrə təşkil edilən birinciliyə yekun vurulub.

Gənclər və İdman Nazirliyi ilə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin təşkil etdiyi yarış olimpiya sistemi üzrə keçirilib.

* * *

Gənclər Mərkəzində Beynəlxalq Tələbə-Gənclər Həftəsi ilə əlaqədar tələbələr arasında "Xəmsə" milli intellektual oyunu və ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələr arasında "Azərbaycanı tanı" intellektual oyunu keçirilib.

12 komandanın iştirak etdiyi "Xəmsə" milli intellektual oyun 3 yarımfinal və final mərhələsindən ibarət olub, "Bəlli", "Şərtli", "Sirli", "Fərdi" və "Xəmsə" raundlarında müxtəlif mövzularda 25 sual səsləndirilib.

Ali təhsil müəssisələrində təhsil alan əcnəbi tələbələr arasında keçirilən "Azərbaycanı tanı" intellektual oyunda isə iştirakçılar pazl şəklində olan Azərbaycanın coğrafi xəritəsini daha tez yığmaq üçün yarışıblar.

Qeyd edək ki, qalib komandalar və iştirakçılar noyabrın 15-də "Gənclik" Mərkəzində keçiriləcək tədbirdə mükafatlandırılacaqlar.

**Ceyhun MƏMMƏDOV**

## Peyntbol üzrə muxtar respublika birinciliyi



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi, Paralimpiya və Atıcılıq federasiyalarının birgə təşkilatçılığı ilə Atıcılıq Mərkəzində 12 Noyabr – Konstitusiya Günü münasibətilə sağlamlıq imkanları məhdud Azərbaycan Vətən müharibəsi iştirakçıları və onlara bərabər tutulan şəxslər arasında peyntbol üzrə muxtar respublika birinciliyi keçirilib. Birincilikdə 8 komandada 40 nəfər iştirak edib.

Oyunların yekun nəticəsinə əsasən Sədərək rayon, Naxçıvan şəhər və Şahbuz rayon komandaları müvafiq olaraq ilk üç pillədə qərarlaşıblar.

Mükafatlandırma mərasimində Gənclər və İdman naziri Azad Cabbarov iştirakçıları Konstitusiya Günü münasibətilə təbrik edib, muxtar respublikada göstərilən diqqət və qayğı nəticəsində idmanın dinamik inkişaf etdiyini vurğulayıb.

Atıcılıq Federasiyasının sədri Səhət Həbibbəyli çıxışında sözügedən idman növünün muxtar respublikada təbliğ olunduğunu, rayonlarda da atıcılıq üzrə idman klublarının yaradıldığını, TİR meydançalarının formalaşdırılması istiqamətində işlərin diqqətdə saxlanıldığını qeyd edib.

Paralimpiya Federasiyasının sədri Nicat Babayev isə muxtar respublikada hər yaş kateqoriyasından olan sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası istiqamətində federasiya tərəfindən davamlı olaraq bir sıra idman yarışlarının keçirildiyini bildirib.

Qaliblərə təşkilatçılar tərəfindən diplom, medal, kubok, mərmi kuponları və hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Görmə məhdudiyyəti olan şəxslərə sovqatlar təqdim olunub

Dünən Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində Beynəlxalq Gözdən Əlillər Günü ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə çıxış edənlər bildiriblər ki, sağlamlıq imkanları məhdud şəxslər dövlətimizin hərtərəfli qayğısı əhatəsindədir. Onların sosial reabilitasiyaları, təhsil almaları, cəmiyyətə inteqrasiyaları, habelə asudə vaxtlarının səmərəli təşkili istiqamətində davamlı tədbirlər həyata keçirilir.

Qeyd edək ki, həmin gün muxtar respublikanın rayon mərkəzlərində də tədbirlər keçirilib. Bu tədbirlərdə, ümumilikdə, görmə məhdudiyyəti olan 300 şəxsə sovqat təqdim olunub.

Tədbirdə iştirak edə bilməyən şəxslərə isə evlərində baş çəkilib, onlara sovqat verilib.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47

Şöbələr: 545-81-44, 545-51-18

Müxbirlər: 545-75-21, Faks: 544-52-52

E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Mətanət Məmmədova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1495. Sifariş № 786